# Refund Policy (Geri Qaytarma Siyasəti)

*Qeyd: Aldığınız dərs üçün müəyyənləşdirilmiş ödənişi etməzdən əvvəl geri qaytarma ilə əlaqədar hüquqlarınız, o cümlədən əsas məhdudiyyətlər və istisnaları müəyyənləşdirən hallar ilə yaxından tanış olun.*

- **Geri Qaytarma və Geri Qaytarma Siyasəti**

**Geri Qaytarma Siyasəti** vasitəsi ilə Şirkət istifadəçilərə bu sahədə olan hüquqlarını göstərir. Geri Qaytarma Siyasəti bir tələbənin geri ödəmə hüququna malik olduğu vəziyyəti və bir tələbənin geri ödəmə almaq üçün yerinə yetirməli olduğu proseduru müəyyənləşdirir. Bu siyasət Savadly.com (Şirkət) vasitəsilə təqdim olunan bütün xidmətlər və xüsusiyyətlər üçün tətbiq olunur.

- **Geri Qaytarma Siyasətinin Məqsədi**

Savadly Onlayn Təhsil Platforması olaraq, bu Siyasət vasitəsilə göstərilən xidmətlər ilə əlaqədar olaraq Sayt və İstifadəçilər arasında maliyyə münasibətlərinin aydın şəkildə başa düşülməsini təmin etməyə çalışır. Geri Qaytarma Siyasəti Sayt tərəfindən güvənliliyi və Saytdakı xidmətlərdən istifadə edən şəxslərin rahatlıqla xidmətlərdən yararlanmağı üçün təşkil olunmuşdur.

Saytda olan Geri Qaytarma Siyasəti qanuni olaraq tətbiq edilir. Geri Qaytarma Siyasəti müqavilənin tərkibində aydın və ədalətli şəkildə müəyyənləşdirilmiş, sayta müraciət edən şəxslərə əvvəlcədən bildirilir.

- **Geri ödəniş Proseduru**

Geri ödəniş hüququ əldə etmiş tələbə tərəfindən bank hesabı məlumatları, həmçinin Şirkətin rəhbərliyi tərəfindən tələb edilən digər məlumatlar "Savadly.com" saytının rəsmi elektron poçt ünvanına – info@savadly.com öz adına qeydiyyatda olan elektron poçtu vasitəsilə göndərilməlidir. Bu zaman müvafiq məlumatları göndərən şəxs, məlumatların öz adına qeydiyyatda olan e-poçt-u vasitəsilə göndərilmədiyinə görə bütün riskləri daşıyır.

- **Geri Qaytarma üçün Nəzərdə Tutulan Müddət**

**Tələbə:**
Dərslərdə Fərdi qaydada iştirak edən Tələbə gələcək dərs(lər)də hər hansı səbəbdən dərsin başlamasına ən azı 4 saat qalmış (Tələbənin şəxsi təşəbbüsü və s. kimi) xəbərdarlıq etməklə imtina etsə, Şirkət tərəfdən Bank xərcləri ödəniş məbləğindən tutulmaqla (Azərbaycan daxilində 2%, Azərbaycandan kənarda 5%) Tələbəyə geri qaytarılır. Bu qaydanın pozulduğu təqdirdə Tələbəyə ödəniş geri **qaytarılmır**.

Dərslərdə Qrup şəklində iştirak edən Tələbə gələcək dərs(lər)də hər hansı səbəbdən dərsin başlamasına ən azı 4 saat qalmış (Tələbənin şəxsi təşəbbüsü və s. kimi) xəbərdarlıq etməklə iştirak edə bilməsə və bununla bağlı geri ödəmə tələbi etsə, ödəniş Tələbəyə geri qaytarılmır. Qrup dərslərində **ilk 2 dərsdən sonra** Tələbəyə ödəniş geri **qaytarılmır**.

**Videodərslər –**Bu dərslərin alışı zamanı Tələbə dərsdən imtina etdiyi təqdirdə ödəniş geri **qaytarılmır.**

**Müəllim:**

**Qrup** şəklində keçilən dərslər üzrə Müəllim tərəfindən kursun müddəti və həmin müddətə uyğun dərs sayı təyin olunur. Əvvəlcədən təyin olunmuş keçirilməli olan dərs sayı tamamlanana qədər Müəllimə **Qrup** dərsinin ödənişi həyata keçirilmir. Müəllim tərəfindən dərs(lər)in yarımçıq saxlanılması halında müəllimə həmin dərsin ödənişi həyata keçirilmir. Müəllim ödənişi, Müəllimin səbəb olduğu əsaslar istisna olmaqla, yalnız tamamlanmış və ödənişi geri qaytarılmamış dərslər nəzərə alınaraq hesablanır. Həmçinin, Müəllimin hər hansı səbəbdən Qrup dərsini yarım qoyması halında Müəllimə müvafiq qrup dərsi üzrə ödəniş həyata keçirilmir. Bu kimi səbəblərdən, Müəllimə ödəniş yalnız **Qrup** dərsi (öncədən nəzərdə tutulan dərs sayı) tamamlandıqdan sonra həyata keçirilir.

- **Geri Ödəmə (Qaytarma) Proseduru**

**Tələbə:**

Geri ödəmə tələbi həmin dərsin alış günündən etibarən 14 (on dörd) təqvim günü ərzində qüvvədə qalır. Həmin müddət bitdikdən sonra geri ödəmə ilə bağlı tələb qeydə alınmır və geri ödəmə mümkün deyildir.

Tələbənin ödənişin geri qaytarılması ilə bağlı müraciətinə Şirkət tərəfindən 5 (beş) iş günü müddətində baxılır. Tələbənin ödənişin geri qaytarılması müraciəti Geri qaytarma Siyasətinin bütün tələblərinə cavab verərsə, müraciətin Savadly.Com saytının rəsmi e-mail ünvanına daxil olduğu gündən etibarən 30 (otuz) gün müddətində geri qaytarılmalı ödəniş Tələbənin hesabına köçürülür. Müraciətin bu Siyasətə uyğun həyata keçirilməsi, Müraciətə əsas olan halların yoxlanması və ödənişin geri qaytarılması ilə bağlı tələbin qəbul və ya rədd edilməsi Şirkətin müstəsna səlahiyyətindədir və müvafiq qərarın ədalətli şəkildə təmin olunması üçün bütün tədbirlər görülür. Bu məqsədlə Şirkət tərəfindən Tələbədən lazımi məlumatlar tələb edildikdə, Tələbə həmin məlumatları təqdim etməlidir.

**Qeyd:** Bu Geri Qaytarma Siyasətində *Geri ödəmə yalnız tələbənin iştirak etmədiyi, gələcəkdə keçiriləcək dərslərə münasibətdə qaytarıla bilər.*

İstifadəçinin giriş məlumatlarını (istifadəçi adı və şifrələrini) itirməsi və/və ya unutması nəticəsində məlumatların itirilməsi, istifadəçi hesabına girişin müvəqqəti itirilməsi və ya istifadəçi üçün hər hansı digər problemlərin olmasından qaynaqlanan vəziyyətdə dərsə daxil olmamağa (ola bilməməyə) görə geri ödəmə tətbiq edilməyəcəkdir.

İstifadəçinin İnternetə çıxışı, və ya proqram / Sayt yeniləmələri olmadığı üçün dərslərə daxil olmaması (ola bilməməsi) halında geri ödəmə tətbiq edilməyəcəkdir.

Sayt geri ödəniş zamanı yarana biləcək komissiya haqqı üçün məsuliyyət daşımır.

- **Geri Qaytarmanın Nəticəsi**

Bu Siyasətdə Geri Qaytarmanın həyata keçirilməsi üçün nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra Tələbinin həmin hüququna xitam verilir. Həmçinin tələbənin öz şəxsi hesabını istənilən vaxt silmək imkanı var. Hesabın silinməsi üçün heç bir geri ödəniş nəzərdə tutulmamışdır.

***** Əgər Tələbə dərsdə iştirak edə bilməyəcəyinə dair bu Siyasətdə qeyd edilən müddətdə və qaydada Şirkətə rəsmi xəbərdarlıq verməzsə, Tələbəyə ödəniş geri qaytarıla bilməz.